# AZƏRBAYCAN RESPUBLİKASININ
# QANUNU

## "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında 21 noyabr 2013-cü il tarixli Sazişin tətbiqinə dair Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında" Sazişin təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **q ə r a r a  a l ı r :**

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında 21 noyabr 2013-cü il tarixli Sazişin tətbiqinə dair Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında" 2016-cı il noyabrın 28-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 546-VQ

**Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında 21 noyabr 2013-cü il tarixli Sazişin tətbiqinə dair Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında**

**SAZİŞ**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi (bundan sonra – Tərəflər),

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında 21 noyabr 2013-cü il tarixli Sazişin (bundan sonra – Əsas Saziş) 12 və 13-cü maddələrinin həyata keçirilməsi məqsədi ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Bu Sazişdə istifadə edilən terminlər Əsas Sazişin 1-ci maddəsində qeyd edilən terminlərlə eyni mənanı ifadə edir.

**Maddə 2**

Əsas Sazişin 1-ci maddəsinin 1-ci bəndinin 7-ci yarımbəndinə uyğun olaraq bu Sazişin tətbiqi məsələləri ilə bilavasitə məşğul olan Tərəf dövlətlərin kompetent təşkilatları (orqanları) aşağıdakılardır:

1. Azərbaycan Respublikasında:

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu - pensiya təminatına məcburi sığorta haqlarının yığımı, əmək pensiyalarının təyinatı, ödənilməsi, maliyyələşdirilməsi və Azərbaycan Respublikasının hüdudlarından kənara əmək pensiyalarının ödənişi.

2. Belarus Respublikasında:

əmək, məşğulluq və sosial müdafiə üzrə orqanlar - əmək pensiyalarının təyinatı və ödənilməsi məsələləri üzrə;

Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin Əhalinin Sosial Müdafiəsi Fondu - pensiya sığortası üçün məcburi sığorta haqlarının yığımı, əmək pensiyalarının ödənişinin maliyyələşdirilməsi, Belarus Respublikasının hüdudlarından kənara əmək pensiyalarının ödənişi.

**Maddə 3**

1. Əsas Sazişin 5-ci maddəsinin ikinci hissəsinin 1-ci bəndi ilə müəyyən edilmiş müddəalarının həyata keçirilməsi məqsədi ilə vətəndaşa qanunvericiliyi şamil olunan bir Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) vətəndaşa və/ və ya digər Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) onun sorğusu əsasında bu Sazişin 1 nömrəli əlavəsinə uyğun olaraq vətəndaşa sorğunun daxil olduğu gündən 10 (on) iş günü ərzində bu Tərəfin qanunvericiliyinin tətbiq olunmasının davam etməsini təsdiq edən qanunvericiliyinin tətbiqi haqqında arayış verir.

2. Əsas Sazişin 5-ci maddəsinin ikinci hissəsinin 1-ci bəndinin qüvvəsinin uzadılması (1 (bir) ildən çox olmayaraq) məqsədi ilə səlahiyyətli orqanlar qanunvericiliyi vətəndaşa tətbiq olunan Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) bu Sazişin 1 nömrəli əlavəsinə uyğun olaraq vətəndaşa bu Tərəf dövlətin qanunvericiliyinin şamil olunmasının davam etməsini təsdiq edən qanunvericiliyin tətbiqi haqqında arayışın verilməsinin həvalə edilməsi barədə razılaşdırılmış qərar qəbul edə bilərlər.

3. Bu maddədə göstərilən arayış:

Azərbaycan Respublikasında - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən;

Belarus Respublikasında - Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin Əhalinin Sosial Müdafiəsi Fondu tərəfindən verilir.

**Maddə 4**

1. Əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) vətəndaş tərəfindən ərazisində yaşadığı Tərəf dövlətdə tətbiq edilən formaya uyğun doldurulan və bu Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) təqdim edilən ərizə əsasında həyata keçirilir. Ərizəyə əmək pensiyasını təyin edən Tərəf dövlətin qanunvericiliyinə uyğun olaraq əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) üçün zəruri sənədlər əlavə edilir.

2. Ərizənin verildiyi tarix vətəndaşın ərazisində yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən ərizənin qeydiyyata alındığı tarix hesab edilir. Göstərilən ərizə ona bütün zəruri sənədlər əlavə olunaraq poçt vasitəsilə göndərildikdə əmək pensiyasının təyin edilməsi üçün müraciət günü bu ərizənin göndərildiyi yer üzrə poçt təşkilatının (obyektinin) möhüründə göstərilən tarix hesab edilir.

**Maddə 5**

Əmək pensiyalarının təyin edilməsi (yenidən hesablanması) və ödənişi məsələlərinə baxılarkən Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) bu Sazişin 2-5 nömrəli əlavələrinə uyğun formalar üzrə hazırlanan sənədləri mübadilə edirlər.

**Maddə 6**

1. Azərbaycan Respublikası ərazisində yaşayan vətəndaşın Belarus Respublikası ərazisində əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) məsələsini həll etmək məqsədi ilə müvafiq formulyar və sənədlər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən vətəndaşın Belarus Respublikasındakı ən son yaşayış yeri (iş yeri) üzrə əmək, məşğulluq və sosial müdafiə orqanına göndərilir.

2. Belarus Respublikası ərazisində yaşayan vətəndaşın Azərbaycan Respublikası ərazisində əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) məsələsini həll etmək məqsədi ilə müvafiq formulyar və sənədlər Belarus Respublikasının əmək, məşğulluq və sosial müdafiə orqanları tərəfindən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna göndərilir.

3. Vətəndaşın yaşadığı yer üzrə Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) haqqında qərarın qəbul edilməsi həmin Tərəf dövlətin qanunvericiliyi ilə müəyyən olunmuş müddətdə həyata keçirilir.

Vətəndaşın ərazisində yaşamadığı Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) haqqında qərarın qəbul edilməsi həmin Tərəf dövlətin qanunvericiliyi ilə müəyyən olunmuş müddətdə həyata keçirilir. Bu zaman göstərilən müddətlər müvafiq sənədlərin əmək pensiyasını təyin edən adıçəkilən səlahiyyətli təşkilata (orqana) daxil olduğu tarixdən başlayır.

**Maddə 7**

1. Əsas Sazişin 6 və 8-ci maddələrinə uyğun olaraq vətəndaş əmək pensiyasının təyin edilməsi üçün müraciət etdikdə vətəndaşın yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) onun ərazisində qazanılmış iş stajı (sığorta stajı) və/ və ya 31 dekabr 1991-ci il tarixinədək keçmiş SSRİ dövlətləri ərazisində toplanmış iş stajına (sığorta stajına) görə əmək pensiyası təyin edir (hesablayır) və ödəyir. Vətəndaşın digər Tərəf dövlətin ərazisində qazanılmış iş stajı (sığorta stajı) olduqda göstərilən səlahiyyətli təşkilat (orqan) bu Sazişin 2 nömrəli əlavəsinə uyğun olaraq əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması), əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi barədə formulyarı iki nüsxədə dolduraraq, bu Sazişin 3 nömrəli əlavəsinə uyğun iş stajı (sığorta stajı) haqqında arayış və əmək pensiyası təyin edilməsi üçün zəruri olan sənədlərlə (lazım olduqda səlahiyyətli təşkilat (orqan) tərəfindən sənədlərin təsdiq edilmiş surətləri ilə) birlikdə əmək pensiyasının təyin edilməsi (əmək pensiyası təyinatından imtina) haqqında qərarın qəbul edildiyi gündən etibarən 10 (on) iş günü ərzində digər Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) göndərir.

Digər Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) əmək pensiyasının təyin edilməsi (əmək pensiyası təyinatından imtina) barədə qərarın qəbul edildiyi gündən etibarən 10 (on) iş günü ərzində əmək pensiyasının təyin edilməsi (əmək pensiyası təyinatından imtina) haqqında müvafiq məlumatları əks etdirən formulyarların bir nüsxəsini bilavasitə formulyarı dolduran və göndərən Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) qaytarır. Əmək pensiyası təyinatından imtina edildiyi halda əlavə olaraq müvafiq qərar göndərilir. Zərurət olduqda əmək pensiyası təyinatı məsələsinin həll edilməsi məqsədi ilə Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) əmək pensiyasının təyin edilməsi üçün çatışmayan sənədləri üzrə sorğu edir. Digər Tərəf dövlətin ərazisindən sənədlərin sorğusu Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) vasitəsilə həyata keçirilir.

2. Əsas Sazişin 9-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq vətəndaş əmək pensiyasının təyin olunması üçün müraciət etdikdə bu maddənin 1-ci bəndi tətbiq edilir.

**Maddə 8**

Tərəf dövlətlərin qanunvericiliyinə əsasən əmək pensiyası hüququnun müəyyən edilməsi məqsədi ilə iş stajı (sığorta stajı) dövrlərinin toplanması zərurəti yarandıqda

əmək pensiyası təyinatı barədə ərizəni qəbul etmiş bir Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) digər Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) onun qanunvericiliyinə əsasən qazanılmış iş stajının (sığorta stajının) təsdiq edilməsi üçün sorğu edir. Bu zaman sorğuya səlahiyyətli təşkilat (orqan) tərəfindən iş və digər fəaliyyət barədə sənədlərin təsdiq edilmiş surətləri əlavə olunur. Sorğuya cavab bu Sazişin 3 nömrəli əlavəsinə uyğun olaraq iş stajı (sığorta stajı) barədə arayış formasında rəsmiləşdirilir. Bundan əlavə, zərurət olduqda xüsusi iş şəraitinə əsasən (Belarus Respublikasında, həmçinin xidmət illərinə görə) əmək pensiyası hüququ verən xüsusi (güzəştli) iş stajını təsdiq edən sənədlər üçün sorğu edilir.

Bu fəaliyyəti Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu və Belarus Respublikasının əmək, məşğulluq və sosial müdafiə orqanları həyata keçirirlər.

**Maddə 9**

Əsas Sazişin 10-cu maddəsinin 1-ci bəndinə uyğun olaraq Əsas Saziş qüvvəyə mindikdən sonra onun tətbiqi ilə təyin edilmiş əmək pensiyasını alan pensiyaçı Tərəf dövlətlərin əraziləri hüdudlarından köçdükdə onun yeni yaşayış yeri üzrə Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) pensiyaçının ərizəsi və bu Tərəf dövlətin ərazisində yaşamasını təsdiq edən sənədləri əsasında ərizənin qeydiyyata alındığı gündən etibarən 5 (beş) iş günü ərzində 31 dekabr 1991-ci il tarixinədək əldə edilmiş iş stajına (sığorta stajına) görə təyin edilmiş əmək pensiyası ödənişinin dayandırılması haqqında arayış-attestat barədə (zərurət yarandıqda əmək pensiyası işi) pensiyaçının əvvəlki yaşayış yeri üzrə digər Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) sorğu edir. Pensiyaçının əvvəlki yaşayış yeri üzrə Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) sorğunu aldıqda həmin Tərəf dövlətin qanunvericiliyində nəzərdə tutulmuş müddət ərzində göstərilən staja görə əmək pensiyası ödənişini dayandırır və əmək pensiyası ödənişinin dayandırılması barədə arayış-attestatı (zərurət yarandıqda əmək pensiyası işini) pensiyaçının yeni yaşayış yeri üzrə Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) göndərir. Tərəf dövlətin bu səlahiyyətli təşkilatı (orqanı) pensiyaçının əvvəlki yaşayış yeri üzrə əmək pensiyası ödənişi dayandırıldığı aydan göstərilən iş stajına (sığorta stajına) görə əmək pensiyası təyin edir.

Yeni yaşayış yerinə köçmüş pensiyaçı tərk etdiyi Tərəf dövlətin ərazisində 31 dekabr 1991-ci il tarixindən sonra iş stajına (sığorta stajına) malik olduqda, bu Sazişin 2 nömrəli əlavəsinə uyğun olaraq əmək pensiyasının təyin edilməsi (yenidən

hesablanması), əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi haqqında ərazisi tərk edilmiş Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) göndərilən formulyardan istifadə edilir. Bu Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) formulyarın qeydiyyata alındığı gündən etibarən 10 (on) iş günü ərzində 1 yanvar 1992-ci il tarixindən ərazisində qazanılmış iş stajı (sığorta stajı) dövrləri nəzərə alınmaqla əvvəl təyin edilmiş əmək pensiyasının məbləğinə əmək pensiyası ödənişi dayandırıldığı gündən yenidən baxılmasını (məbləğin yenidən hesablanmasını) həyata keçirir.

**Maddə 10**

Vətəndaş Əsas Sazişin normaları nəzərə alınmaqla təyin edilmiş əmək pensiyasının yenidən hesablanması və ya əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi üçün müraciət etdikdə, ərazisində yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) onun ərizəsi əsasında və bu Sazişin 2 nömrəli əlavəsinə uyğun olaraq əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) və ya əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi haqqında formulyarı iki nüsxədə doldurur, onu digər zəruri sənədlərlə birlikdə ərizənin qeydiyyata alındığı gündən etibarən 10 (on) iş günü ərzində əmək pensiyasını təyin etmiş Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) göndərir. Formulyarı alan Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) qərar qəbul edildiyi gündən etibarən 10 (on) iş günü ərzində əmək pensiyasının yenidən hesablanması (yenidən hesablanmasından imtina edilməsi), əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi (əmək pensiyasının bir növündən başqa növünə keçirilməsindən imtina edilməsi) haqqında məlumatları əks etdirən formulyarın bir nüsxəsini bilavasitə formulyarı dolduran və göndərən Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) qaytarır. Əmək pensiyasının yenidən hesablanması və ya əmək pensiyasının bir növündən başqa növünə keçirilməsindən imtina edildiyi halda əlavə olaraq müvafiq qərar göndərilir.

Qeyd edilən formulyar vətəndaşın ərazisində yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) daxil olana qədər vətəndaşa əmək pensiyası əvvəlki qaydada və məbləğdə ödənilir. Əmək pensiyasının yenidən hesablanması və ya əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi haqqında daxil olan qərar əsasında əmək pensiyası ödənilərkən əvvəllər ödənilmiş əmək pensiyası məbləğləri nəzərə alınır.

**Maddə 11**

1. Bir Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən digər Tərəf dövlətin ərazisində yaşayan vətəndaşlara təyin edilmiş əmək pensiyalarının ödənişi ödəniş cədvəlləri əsasında həyata keçirilir. Ödəniş cədvəlləri bu Sazişin 4 nömrəli əlavəsinə uyğun olaraq elektron şəkildə tərtib olunaraq rübün ikinci ayının 10-dan gec olmayaraq əmək pensiyasını təyin etmiş Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən vətəndaşın ərazisində yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) göndərilir.

2. Əmək pensiyasının ödənişi üçün pul vəsaiti əmək pensiyasını təyin etmiş Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən rübdə bir dəfə, rübün ikinci ayının 15-dən gec olmayaraq vətəndaşın ərazisində yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatının (orqanın) bank hesabına əməliyyatın aparıldığı günə müvafiq olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı və Belarus Respublikasının Milli Bankı tərəfindən müəyyən edilmiş valyuta məzənnəsi əsasında ABŞ dolları ilə köçürülür. Bu zaman əməliyyatın aparıldığı gün ödəniş cədvəlinin hazırlandığı gün hesab olunur. Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) valyutalar məzənnəsini hər bir ödəniş cədvəlində göstərir.

Əmək pensiyası ödənişi müvafiq olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı və Belarus Respublikasının Milli Bankı tərəfindən əməliyyatın aparıldığı günə rəsmi müəyyən edilmiş qüvvədə olan valyuta məzənnəsi əsasında vətəndaşın ərazisində yaşadığı Tərəf dövlətin milli valyutası ilə rübün üçüncü ayının 15-dən gec olmayaraq həyata keçirilir. Bu zaman əməliyyatın aparıldığı gün vətəndaşa xidmət göstərən banka əmək pensiyası məbləğlərinin köçürülməsi üçün ödəniş sənədlərinin hazırlandığı gün hesab edilir.

3. Vətəndaşın ərazisində yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) əmək pensiyası məbləğinin vətəndaşın bankdakı hesabına köçürülməsini təşkil edir.

4. Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) əmək pensiyası ödənişinə xərclənmiş pul vəsaitlərinin məbləğinə ödəniş haqqında hesabatlar və pul vəsaitlərinin köçürülməsi haqqında sənədlər əsasında nəzarət edirlər. Əgər köçürülmüş pul vəsaiti faktiki ödəniləndən çoxdursa, onun qalığı növbəti rübdə əmək pensiyası ödənişi üçün pul vəsaitinin hesabına daxil edilir.

Ödəniş haqqında hesabat pensiyaçının adı, soyadı, şəxsi kodu, fərdi (şəxsi) nömrəsi, ödənilməmiş əmək pensiyası məbləği, ödənilməməsinin səbəbi və onun

yaranma tarixi göstərilməklə əmək pensiyası ödənişi edilməyən şəxslərin siyahısını əks etdirir.

Ödəniş haqqında hesabat məlumat mübadiləsi qaydalarına (bu Sazişin 4 nömrəli əlavəsinə) uyğun olaraq elektron formada Word (.doc) və ya Excel (.xls) formatında tərtib edilir və əmək pensiyası ödənişinin həyata keçirildiyi rübdən sonrakı ayın 15-dək əmək pensiyasını təyin etmiş Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) göndərilir.

5. Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) ildə iki dəfə (yanvar və iyulda) bu Sazişin 5 nömrəli əlavəsinə uyğun olaraq iki nüsxədə yarım il üzrə əmək pensiyası ödənişinə xərclənmiş pul vəsaitləri haqqında yoxlama aktları kağız formasında hazırlayır və bir-birinə poçt vasitəsilə göndərirlər. Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) təsdiq edilmiş aktın bir nüsxəsini həmin ilin 15 fevral və 15 avqust tarixlərinədək bir-birinə geri qaytarırlar.

6. Hər bir Tərəf dövlətin səlahiyyətli təşkilatları (orqanı) Tərəf dövlətlərin qanunvericiliyinə uyğun olaraq Əsas Sazişə əsasən əmək pensiyası məbləğlərinin tam və vaxtında köçürülməsinə, eyni zamanda əmək pensiyalarının vaxtında, tam və düzgün ödənişinə məsuliyyət daşıyır.

**Maddə 12**

1. Əmək pensiyası alanlar bu Sazişlə nəzərdə tutulan qaydada əmək pensiyalarının ödənişi ilə bağlı xərc çəkmirlər.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu aşağıdakı xərcləri üzərinə götürür:

1) Belarus Respublikası ərazisində yaşayan Tərəf dövlətlərin vətəndaşlarına Azərbaycan Respublikası tərəfindən təyin edilmiş əmək pensiyasının ödənişinin maliyyələşdirilməsini nəzərdə tutan pul vəsaitinin Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin Əhalinin Sosial Müdafiəsi Fondunun bank hesabına köçürülməsi ilə bağlı;

2) Azərbaycan Respublikası ərazisində yaşayan, Belarus Respublikası tərəfindən Tərəf dövlətlərin vətəndaşlarına təyin edilmiş əmək pensiyalarının ödənişi və çatdırılması ilə bağlı.

3. Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin Əhalinin Sosial Müdafiəsi Fondu aşağıdakı xərcləri üzərinə götürür:

1) Azərbaycan Respublikası ərazisində yaşayan Tərəf dövlətlərin vətəndaşlarına Belarus Respublikası tərəfindən təyin edilmiş əmək pensiyasının ödənişinin maliyyələşdirilməsini nəzərdə tutan pul vəsaitinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun bank hesabına köçürülməsi ilə bağlı;

2) Belarus Respublikası ərazisində yaşayan, Azərbaycan Respublikası tərəfindən təyin edilmiş Tərəf dövlətlərin vətəndaşlarına əmək pensiyalarının ödənişi və çatdırılması ilə bağlı.

**Maddə 13**

Pensiyaçının ölümü ilə əlaqədar onun tərəfindən alınmamış əmək pensiyası məbləğini pensiyaçının öldüyü gün, ərazisində yaşamadığı Tərəf dövlətin səlahiyyətli təşkilatından (orqanından) almaq hüququ yaranan şəxsə həmin məbləğin ödənişi şəxsin pensiyaçının öldüyü gün ərazisində yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) təqdim etdiyi sərbəst formada yazılmış ərizə və alınmamış məbləğin ödənişi üçün zəruri olan sənədlər (Azərbaycan Respublikasında - vərəsəlik hüququ haqqında şəhadətnamə, Belarus Respublikasında – ölüm haqqında şəhadətnamə, qohumluq əlaqələrini və mərhumla öldüyü günə qədər birgə yaşayışını təsdiq edən sənədlər və ya vərəsəlik hüququ haqqında şəhadətnamə) əsasında həyata keçirilir. Bu səlahiyyətli təşkilat (orqan) qərarın qəbul edilməsi və alınmamış əmək pensiyası məbləğinin ödənişinin təşkili məqsədi ilə 10 (on) iş günü ərzində qəbul edilmiş ərizə və sənədləri (zərurət yarandığı halda səlahiyyətli təşkilat (orqan) tərəfindən sənədlərin təsdiqlənmiş surətlərini) digər Tərəf dövlətin səlahiyyətli təşkilatına (orqanına) göndərir.

Göstərilən ərizəni və sənədləri (sənədlərin surətini) alan Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) qeyd edilən məbləğin ödənişi (və ya ödənişdən imtina edilməsi) haqqında qərar qəbul edir. Pensiyaçının ölümü ilə əlaqədar alınmamış məbləğin ödənişi haqqında qərar qəbul edildikdə onu almaq hüququna malik şəxslərə əmək pensiyasının ödənişi (köçürülməsi) bu Sazişin 11 və 12-ci maddələri ilə müəyyən olunmuş qaydada həyata keçirilir. Qərar qəbul edildiyi gündən etibarən 10 (on) gün ərzində ərizəçiyə qəbul olunmuş qərar barədə məlumat göndərilir.

**Maddə 14**

1. Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) vətəndaşların müraciətləri daxil olduqda onlara əmək pensiyası təyinatı (yenidən hesablanması), ödənişinin bərpası və ya ödənişin bərpasından imtina edilməsi haqqında qəbul edilmiş qərar, həmçinin qərardan Tərəf dövlətlərin qanunvericiliyinin müddəalarına uyğun olaraq şikayət edilməsi qaydası və müddəti barədə məlumat verirlər.

Əsas Sazişə uyğun olaraq əmək pensiyası təyin edilmiş vətəndaşlara sərbəst formada yazılmış ərizə əsasında əmək pensiyasını təyin etmiş Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən müəyyən olunmuş formada əmək pensiyası vəsiqələri və əmək pensiyasının məbləği barədə arayışlar verilir.

2. Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) əmək pensiyası məbləğinin dəyişməsi, əmək pensiyası ödənişinin dayandırılması, onlar tərəfindən tanınmış əmək pensiyası hüququnun ləğv edilməsi və ya hüququn saxlanılmasına təsir edəcək fakt və halların təsdiqlənməsi, zəruri sənədlərin və məlumatların təqdim edilməsi üçün bir-birinə müraciət edə bilərlər. Qeyd edilən müraciətlər əvəzsiz həyata keçirilir.

3. Razılıq əsasında Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) əmək pensiyası məbləğinin dəyişməsi və ya dayandırılmasına səbəb olan hallar, o cümlədən:

a) iş və ya hər hansı fəaliyyətin başlanılması, dayandırılması;

b) əmək pensiyası alanın ölümü;

v) əmək pensiyası alanın bir Tərəf dövlətin ərazisindən digər Tərəf dövlətin və ya üçüncü dövlətin ərazisinə köçməsi;

q) əmək pensiyası alanın vətəndaşlığının dəyişməsi barədə bir-birlərini məlumatlandırırlar.

Bu bənd əmək pensiyası məbləğinin dəyişməsi və ya dayandırılmasına səbəb olan digər hallara da şamil edilir.

Zərurət yarandıqda Əsas Sazişə uyğun olaraq Tərəf dövlətlərin səlahiyyətli təşkilatları (orqanları) ödənilən əmək pensiyalarının məbləğinə dair bütün dəyişikliklər barədə bir-birlərinə məlumat verirlər.

**Maddə 15**

Əmək qabiliyyətinin itirilmə dərəcəsi, əlillik qrupu və səbəbinin müəyyənləşdirilməsi üçün zəruri olan arayiş, tibbi və digər sənədlərin mübadilə qaydası Tərəf dövlətlərin müvafiq səlahiyyətli orqanları tərəfindən müəyyən edilir.

**Maddə 16**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı əsasında onun ayrılmaz hissəsi olan, ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 17-ci maddəsində müəyyən olunan qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

**Maddə 17**

Bu Saziş, Əsas Sazişin 21-ci maddəsinə uyğun olaraq qüvvəyə minir və Əsas Sazişlə eyni vaxtda qüvvədən düşür.

Bakı şəhərində "28" noyabr 2016-cı il tarixində hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə hazırlanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilindəki mətndən istifadə edirlər.

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından**

**Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi adından**

Əlavə 1

______________________________________________
Səlahiyyətli təşkilatın (orqanın) adı

__ ______________ 20__ il
№ ____________________________

**Qanunvericiliyin tətbiqi haqqında**
**ARAYIŞ**

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında əmək pensiyası təminatı sahəsində əməkdaşlıq haqqında 21 noyabr 2013-cü il tarixli Sazişin tətbiqinə dair, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında Sazişin 3-cü maddəsinə uyğun olaraq aşağıdakıları bildiririk:

1. İşçi

Soyadı ______________________________
(soyadı dəyişdirildikdə əvvəlki soyadı da göstərilməklə)
Adı ______________________________

Atasının adı ______________________________

Doğum tarixi ______________________________

Vətəndaşlığı ______________________________

Dövlət sosial sığorta şəhadətnaməsinin №-si ______________

2. İşəgötürən

İşəgötürənin adı ______________________________

İşəgötürənin qeydiyyat nömrəsi/ ödəyicinin uçot nömrəsi __________

Hüquqi ünvanı ______________________________
(küçə, evin nömrəsi və ya abonent qutusu,
______________________________
yaşayış məntəqəsi, poçt indeksi, dövlət)
Telefon/ faks ______________________________

3. Yuxarıda adıçəkilən işçi haqqında məlumat:

3.1. bu işəgötürəndə ________________________ tarixdən işləyir
(tarix, ay, işə qəbul ili)

3.2. İşəgötürən tərəfindən _________ dövrdən _________ dövrədək təşkilata iş üçün göndərilmişdir:

Təşkilatın adı ______________________________________________________

Təşkilatın qeydiyyat nömrəsi/ ödəyicinin uçot nömrəsi _____________________

Hüquqi ünvanı ______________________________________________________
(küçə, evin nömrəsi və ya abonent qutusu,

___________________________________________________________________
yaşayış məntəqəsi, poçt indeksi, dövlət)

Telefon/ faks ______________________________________________________

E-mail ___________________________________ (olduğu təqdirdə)

4. Göstərilən tarixdə işçiyə _______________________________________________
(dövlətin adı)

qanunvericiliyi şamil olunur.

Səlahiyyətli təşkilatın (orqanın) rəhbəri____________ ___________________
İmza (SAA)
Möhür

Əlavə 2

**Əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması), əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi haqqında FORMULYAR**

1. Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında əmək pensiyası təminatı sahəsində əməkdaşlıq haqqında 21 noyabr 2013-cü il tarixli Saziş nəzərə alınmaqla əmək pensiyası təminatı üçün ərizəçinin yaşadığı Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən doldurulan məlumat

Formulyarı dolduran səlahiyyətli təşkilatın (orqanın) adı ____________________

Onun ünvanı ________________________________________________

Formulyarın ünvanlandığı səlahiyyətli təşkilatın (orqanın) adı ________________

Onun ünvanı ________________________________________________

1.1. *Ərizəçi haqqında məlumat*
Adı, soyadı, atasının adı ____________________________________________

Doğum tarixi (tarix, ay, il) __________________________________________

Vətəndaşlığı ______________________________________________________

Cinsi _____________________________________________________________

Şəxsiyyətini təsdiq edən sənədin adı və onun rekvizitləri ___________________

___________________________________________________________________

(nömrə, seriya, kim tərəfindən verilib, verilmə tarixi)

Dövlət sosial sığorta şəhadətnaməsinin №si ____________________________

Ərizə verildiyi tarixdə yaşayış ünvanı (daimi və ya müvəqqəti)

___________________________________________________________________

(küçə, ev və ya mənzilin nömrəsi, yaşayış məntəqəsi, poçt indeksi)

Köçənə qədər yaşadığı ünvan:
Azərbaycan Respublikası (daimi və ya müvəqqəti)/ Belarus Respublikası (daimi) (lazım olanın altından xətt çəkmək)

___________________________________________________________________

___________________________________________________________________

(küçə, ev və ya mənzilin nömrəsi, yaşayış məntəqəsi, poçt indeksi)

Əmək fəaliyyətinin həyata keçirilməsi haqqında məlumat (lazım olanı qeyd etmək)

- o işləyir
- o işləmir
- o sahibkarlıq fəaliyyəti ilə məşğuldur
- o özüməşğul

1.2. Əmək pensiyasının təyin edilməsi (hesablanması), əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi üçün ərizənin verilmə tarixi (lazım olanın altından xətt çəkmək)

______________________________

Əmək pensiyasını (lazım olanı qeyd etmək)

o təyin etmək      o yenidən hesablamaq

- o yaşa görə əmək pensiyası ( __ ümumi əsaslarla, __ güzəştli (erkən)
- o xidmət illərinə görə əmək pensiyası (Belarus Respublikası üçün)
- o əlilliyə görə əmək pensiyası

Əlillik haqqında məlumat:
əlillik qrupu ______________________________
əlilliyin müəyyən edildiyi tarix ______________________________
əlilliyin təyin olunduğu dövr ______________________________
əlilliyin səbəbi ______________________________

o ailə başçısını itirməyə görə əmək pensiyası

vəfat etmiş ailə başçısı haqqında məlumat (ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərkən və hesablanarkən):
soyadı, adı, atasının adı ______________________________
doğum tarixi (tarix, ay, il) ____________ vətəndaşlığı ______________
ölüm tarixi, ölüm səbəbi ______________________________

Vəfat edənin dövlət sosial sığorta şəhadətnaməsinin №-si ______________

Əmək qabiliyyəti olmayan ailə üzvləri haqqında məlumat ______________
(sayı)

| Soyadı, adı, atasının adı | Doğum tarixi | Qohumluq dərəcəsi | Əmək qabiliyyətinin olmaması səbəbi | Qəyyumluğun təyin edildiyi müddət | Dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

Saziş qüvvəyə minənədək əmək pensiyası (lazım olanı qeyd etmək):

- o təyin edilməmişdir
- o təyin edilmişdir

- o Azərbaycan Respublikası tərəfindən
- o Belarus Respublikası tərəfindən
- o Digər dövlət tərəfindən ______________________________

(dövləti qeyd etmək)

1.3. □ Təqdim edilən məlumatların düzgünlüyü, əmək pensiyası məbləğinin dəyişdirilməsi və ya əmək pensiyası ödənişinin dayandırılmasına səbəb olacaq hallar haqqında səlahiyyətli təşkilatı (orqanı) vaxtında məlumatlandırmaq üçün məsuliyyət daşıması haqqında ərizəçiyə xəbərdarlıq edilmişdir.

1.4. Əmək pensiyası təminatına təsir edən (təsir edə biləcək) əlavə məlumat

__________________________________________________________

1.5. *Yaşayış yerinə görə əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması)*, əmək pensiyasının bir növündən başqa növünə *keçirilməsi barədə məlumat (lazım olanın altından xətt çəkmək)*

Əmək Pensiyasının təyin edilməsi (yenidən hesablanması) və ya əmək pensiyası təyinatından (yenidən hesablanmasından) imtina edildiyi tarix

______________________

Təyin edilən (yenidən hesablanan) əmək pensiyasının növü

______________________

Əmək pensiyasının təyin edildiyi müddət _________ tarixdən ________ tarixədək
Əmək pensiyasının yenidən hesablanma müddəti ________________ tarixdən
Əmək pensiyasının məbləği ________________________________________
Yaşayış yerinə görə əmək pensiyası təyin edilərkən (yenidən hesablanarkən) nəzərə alınan iş stajı (sığorta stajı):

| Dövrün əvvəli | Dövrün sonu | İş yeri | İxtisası, vəzifəsi | Qeyd üçün əsas |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

Əlavə olunan sənədlər:

| № | Sənədin adı | Vərəqlərin sayı |
|---|---|---|
| | | |
| | | |

Səlahiyyətli təşkilatın (orqanın) rəhbəri ____________ ________________

İmza (SAA)

Möhür

II. Formulyar əsasında qərar qəbul etmiş Tərəf dövlətin səlahiyyətli təşkilatı (orqanı) tərəfindən doldurulan məlumat

Əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması), əmək pensiyasının bir növündən başqa növünə keçirilməsi haqqında məlumat (lazım olanın altından xətt çəkmək):

Əmək pensiyasının təyin edilməsi (yenidən hesablanması) və ya əmək pensiyası təyinatından (yenidən hesablanmasından) imtina edilməsi tarixi ______________

Təyin edilən (yenidən hesablanan) əmək pensiyasının növü ______________

Əmək pensiyasının təyin edildiyi müddət _______ tarixdən ___________tarixədək

Əmək pensiyasının yenidən hesablanma müddəti _________________ tarixdən

Əmək pensiyasının məbləği _________________________

Əmək pensiyası təyin edilərkən (yenidən hesablanarkən) nəzərə alınan iş stajı (sığorta stajı):

| Dövrün əvvəli | Dövrün sonu | İş yeri | İxtisası, vəzifəsi | Qeyd üçün əsas |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

Əmək pensiyası təminatına təsir edən əlavə məlumat ______________________

__________________________________________________________________

Səlahiyyətli təşkilatın (orqanın) rəhbəri ___________ ______________________

İmza (SAA)

Möhür

Əlavə 3

______________________________________
Səlahiyyətli təşkilatın (orqanın) adı
__ __________ 20______ il
№ __________

**İş stajı (sığorta stajı) haqqında**
**ARAYIŞ**

Soyadı ______________________________
Adı ______________ Atasının adı ______________
Cinsi ______________________________
Doğum tarixi ______________ Vətəndaşlığı______________
Yaşayış yeri ______________________________
(küçə, ev və mənzilin nömrəsi, yaşayış məntəqəsi,
______________________________
poçt indeksi, dövlət göstərilir)

Dövlət sosial sığorta şəhadətnaməsinin №-si
______________________

| İş stajı (sığorta stajı) dövrləri | | İş stajı (sığorta stajı) dövrlərinin müddəti | | | Güzəştli hesablanma zamanı iş stajı (sığorta stajı) dövrləri | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|
| tarixdən | tarixədək | illər | aylar | günlər | illər | aylar | günlər | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |

Bu arayışı verən səlahiyyətli təşkilatın (orqanın) dövlətinin qanunvericiliyinə uyğun olaraq əmək pensiyasının təyinatı üçün ümumi iş stajı (sığorta stajı) müddəti _____ il _____ ay _____ gün təşkil edir.

Səlahiyyətli təşkilatın (orqanın) rəhbəri __________ ______________
İmza (SAA)
Möhür

Əlavə 4

## Məlumat mübadiləsi qaydaları

1. Məlumat mübadiləsi qaydaları:

1.1 Məlumat mübadiləsi üçün elektron poçtdan istifadə edilir. Məlumatlar elektron şəkildə şifrələnmiş və elektron imzadan istifadə edilməklə göndərilir. Məlumatların şifrələnməsi və elektron imzanın yaradılması üçün PGP (Pretty Good Privacy) proqramından istifadə edilir. PGP vasitəsilə imzalanmış elektron hesabatlar əl ilə imzalanmış kağız sənədlər kimi eyni hüquqi qüvvəyə malikdirlər.

1.2. Elektron sənədi aldıqdan sonra bir Tərəf dərhal digər Tərəfə sənədi aldığı haqqında təsdiq göndərir.

1.3. Elektron sənədin şifrəsini açmaq mümkün olmadıqda bu barədə cavabda bildirilir və məlumatlar təkrar olaraq sorğu edilir.

1.4. Saziş imzalandığı gündən etibarən 2 həftə ərzində Tərəf məlumat ötürülməsi və alınması üçün etibarlı nümayəndələrini, texniki məsələlərin həlli üçün məsul şəxslərini təyin edir və ikinci Tərəfə yazılı şəkildə ad, soyad, vəzifə, elektron poçt ünvanı və telefon nömrəsi göstərilməklə müvafiq məlumatı göndərir. Etibarlı nümayəndələr və ya onlar haqqında məlumat dəyişdikdə bir Tərəf digər Tərəfə müvafiq dəyişikliklər edildikdən sonra bir iş günü ərzində yazılı məlumat verir.Tərəflər etibarlı nümayəndələrinə elektron imza üçün açar yaradırlar və açıq açarın təhvil-təslimi haqqında protokol tərtib edirlər. İmzanı sınaqdan keçirdikdən sonra Tərəflər testin nəticələri ilə bağlı məlumatı bir-birinə ötürürlər. Açarın fəaliyyət müddəti bir ildir. Açar bərpa edildikdə mövcud açarın fəaliyyət müddətinin bitməsinə iki həftə qalmış imza sınaqdan keçirilməlidir.

1.5. Faylların imzalanması üçün bir nəfərdən çox etibarlı nümayəndə təyin olunduqda, sənədləri imzalayarkən hər bir etibarlı nümayəndənin eyniləşdirilməsini təmin etmək üçün bütün şəxslərin açıq açarlarını əlavə etmək zəruridir. Əgər elektron imza eyniləşdirilməyirsə, Tərəf məlumatların elektron açar vasitəsilə ötürülməsini təkrar sorğu edir.

1.6. Fərdi açar öz konfidensiallığını itirirsə, Tərəf həmin açarın ləğvini təklif edir. Elektron imza ləğv olunduğu gündən etibarən imza hüququnu itirir. Tərəf operativ şəkildə yeni etibarlı nümayəndəni təyin edir, elektron imzanı generasiya edir və açıq açar haqqında təhvil-təslim protokolu ilə birlikdə yeni açıq açarı və yeni etibarlı nümayəndənin məlumatlarını digər Tərəfə göndərir. Sınaq üçün imzalanmış məlumatlar göndərilməklə yeni elektron imza dərhal sınaqdan keçirilir. Sınaqdan sonra yeni elektron imza dərhal qüvvəyə minir.

2. Məlumat formatının təsviri:

2.1. faylın formatı – XML

2.2. Rübün ikinci ayının 10-u tarixindən gec olmayaraq Tərəflərin səlahiyyətli təşkilatları cari rüb üçün elektron ödəniş cədvəllərini göndərirlər.

2.3. faylın adı NNNGGGGK_nn_ddmmyyyy, burda

NNN – ödəniş edən ölkənin kodu (AZE- Azərbaycan, BLR – Belarus);
GGGG – ödəniş ili;
K – ödəniş dövrünün rübü;
nn- ödəniş dövrü üçün faylın sıra nömrəsi;
ddmmyyyy – faylın yaradılma tarixi.

2.4. Faylın yazılış strukturu:

| | |
|---|---|
| xml version="1.0" encoding="UTF8/ISO-8859-I"> | |
| Faylın əvvəli | <mass_1> |
| Göndərən dövlətin kodu | VARCHAR(3) |
| Əmək pensiyasının ödənişi rübü | VARCHAR(2) |
| Əmək pensiyasının ödənişi ili | VARCHAR(4) |
| ABŞ dollarına nisbətdə göndərən dövlətin valyuta məzənnəsi | VARCHAR(14) |
| Valyuta məzənnəsinin tarixi (dd.mm.gggg) | DATE(IO) |
| Ödəniş cədvəlinin başlanğıcı | <rows> |
| Sətrin başlanğıcı | <row_n> |
| Əmək pensiyası işinin nömrəsi (göndərən dövlətin) | VARCHAR(IO) |
| Əmək pensiyası alanın şəxsi kodu/ fərdi (şəxsi) nömrəsi (göndərən dövlətin) | VARCHAR(20) |
| Pensiyaçının şəxsi kodu/ fərdi (şəxsi) nömrəsi (ödəyən dövlətin) | VARCHAR(20) |
| Əmək pensiyası alanın doğum tarixi | VARCHAR(20) |
| Əmək pensiyası alanın soyadı | VARCHAR(40) |
| Əmək pensiyası alanın adı | VARCHAR(40) |
| Əmək pensiyası növü | VARCHAR(5) |
| Əmək pensiyası ödənişi dövrünün başlama tarixi | DATE(IO) |
| Əmək pensiyası ödənişi dövrünün bitmə tarixi | DATE(IO) |
| Ödəniş dövrü üzrə məbləğ (göndərən dövlətin valyutası ilə) | VARCHAR(12) |
| Ödəniş dövrü üzrə məbləğ (ödəyən dövlətin valyutası ilə) | VARCHAR(12) |
| Sətrin sonu | </row_n> |
| Ödəniş cədvəlinin sonu | </rows> |
| Sətirlərin sayı | VARCHAR(4) |
| Ödəyən dövlətin valyutası ilə ümumi məbləğ | VARCHAR(12) |
| Faylın sonu | </mass_1> |

Mətnin yazı sahəsi latın əlifbası hərfləri ilə doldurulur.

3. Açıq açarın təhvil-təslim protokolu:

AÇIQ AÇARIN TƏHVİL-TƏSLİM PROTOKOLU

______________________________________________________________

(öz işçisinə açıq açar verən təşkilatın (orqanın) adı)

________________________________ şəxsində

(ad, soyad)

işçisi __________________________________________ açıq açarı təqdim edir

(vəzifə, ad, soyad, telefon nömrəsi)

və ____________________________________________________________,

(digər Tərəfin işçisinin açıq açarını qəbul edən səlahiyyətli təşkilatın (orqanın) adı)

_________________________________ şəxsində
(ad, soyad)

_________________________________ açıq açarını qəbul edir.
(vəzifə, ad, soyad, telefon nömrəsi)

aşağıdakı rekvizitlərlə:

| | |
|---|---|
| Açarın uzunluğu | |
| Açarın identifikatoru | |
| Tərəflərin identifikatoru | |
| İstifadəçi identifikatoru | |
| Açarın generasiya tarixi | |
| Açar etibarlıdır | |
| Açarın nəzarət məbləği (fingerprint) | |

Protokol imzalandığı andan bu Protokolun açıq açarına uyğun gələn gizli açarla imzalanmış bütün elektron sənədləri Tərəflər əl ilə imzalanmış sənədlər kimi qəbul edirlər.

Protokol hər bir Tərəf üçün bir nüsxə olmaqla iki nüsxədə tərtib edilmişdir.

İmza

Möhür

İmza

Möhür

Əlavə 5

## SƏLAHİYYƏTLİ TƏŞKİLATIN (ORQANIN) ADI

## AKT

........................... təyin edilmiş əmək pensiyası məbləği və ........................... ödənilmiş əmək pensiyası məbləğinin üzləşdirilməsi

| | |
|---|---|
| _____ 20____ il üçün qalıq | məbləğ (valyutanın adı) |
| məbləğ köçürülmüşdür | məbləğ (valyutanın adı) |
| Siyahıya əsasən məbləğ ödənilmişdir | məbləğ (valyutanın adı) |
| _____ 20____ il üçün qalıq | məbləğ (valyutanın adı) |

Məbləğ yazı ilə

| | |
|---|---|
| Rəhbər | Rəhbər |
| Baş mühasib | Baş mühasib |
| Möhür | Möhür |
| Tarix | Tarix |